
Çevik əl
Çevik beyin
kiçik motorikanın inkişafı
İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİ ÜÇÜN
ELEKTRON VƏSAİT




AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

"Vəsait Təhsildə inkisaf və innovasiyalar üzrə III Qrant müsabiqəsi çərçivəsində hazırlanıb"

Mündəricat

Kiçik motorika nə deməkdir? 8
Koqnitiv bacarıqlarının inkişafı 10
Nitq inkişafı 13
Yazı bacarıqlarının formalaşdırılması üçün manipulyativ hərəkətlərin inkişafı 15
Məktəbəhazırlıq dövründə kiçik motorika bacarıqları niyə əhəmiyyətlidir? 16
Kiçik motorikanın zəif inkişafı uşaqda hansı problemlər yarada bilər? 18
Kiçik motorikanın inkişafında problemlərin olduğunu necə anlamaq olar? 19
Kiçik motorika bacarıqları üçün nələri inkşaf etdirmək lazımdır? 20
Solaxay uşaqlar qələmi necə tutmalıdırlar? 22
Kiçik motorikanın inkişafı üçün fəaliyyətlərin keçirilmə qaydası 23
Kiçik motorikanın inkişafı üçün fəaliyyətlər 24
Plastilinlə iş 26
Qumla oyun 30
Düymələrlə oyun 32

Kağızla iş 33
İplə iş 35
Məişətdə istifadə olunan əşyalarla iş 36
Qayçı tutmaq qaydası 38
Qayçı ilə iş 39
Qələm tutma texnikaları 41
Qrafik tapşırıqlar 42
Məsafə hissinin və məkan anlayışının inkişafı 51
Qrafik imlalar 53
İstifadə olunmuş ədəbiyyat 54



Əziz oxucu, bu kitabda uşaqların kiçik motorikasının ontogenezi və filogenezi ilə tanış olacaqsınız.
Vəsaitdə yazı prosesinin uşaqlar üçün necə pilləli, uzun müddətli olduğunun fərqinə varacaq, kiçik motorikanın inkişaf mərhələləri haqqında fundamental biliklərə yiyələnəcək və dəyər vermənin əhəmiyyətini anlayacaqsınız. Ev və məktəb şəraitində kiçik motorikanın inkişafını izləməyi, analiz etməyi öyrənəcəksiniz. Praktik nümunələr vasitəsi ilə uşaqların kiçik motorikası ilə birlikdə idraki bacarıqlarını da inkişaf etdirəcəksiniz.

Qeyd: "Çevik əl-çevik beyin" kiçik motorikanın inkişafı kitabı 5-6 yaşlı uşaqların yazı bacarıqlarının formalaşmasına dair ibtidai sinif müəllimləri üçün vəsait olduğundan müəllif yalnız əlin kiçik motorikasının inkişafından bəhs edir.

Kitabda kiçik motorikanın inkişafı mərhələləri ardıcıllıqla verilib. Müəllimlərdən uşağın kiçik motorika bacarıqlarının formalaşmasında həmin ardıcıllığa riayət etməyi və tələsməməyi xahiş edirik!

Layihə qrupumuz adından bu yolda uşağınıza özünəinam, sizə isə həvəs və səbr arzulayırıq!

Kiçik motorika nə deməkdir?

Kiçik motorika bacarıqları əl və ayaq barmaqlarının çox kiçik əzələləri vasitəsi ilə edilən əməliyyatlardır.

Kiçik motorika – sinir, dayaq (sümük-əzələ) sisteminin birgə koordinasiya ilə bilək və barmaqların incə və dəqiq hərəkətlər yerinə yetirməsidir. Bu hərəkətlər gözün nəzarəti ilə icra olunur. Əlin kiçik motorikasına jest, tutma və ya daha incə proses olan yazmaq daxildir.

Əl hərəkətinin diapozonu irsən müəyyənləşmir, o, təlim prosesində görmə, toxunma, əzələ arasında assosiativ əlaqələrin formalaşması və ətraf mühitlə fəal qarşılıqlı təsir nəticəsində yaranır (Seçenov). Məktəbəqədər yaş dövrü isə kiçik motorikanın formalaşması və inkişafı üçün ən senzitiv (həssas), uyğun zamandır.

Gəlin məsələyə daha ətraflı nəzər salaq!

Məktəbəqədər dövr uşaqlarda keyfiyyətcə yeni xüsusiyyətlərin yaranma dövrüdür. Bu, uşaqların fiziki və psixi inkişafının intensivliyi ilə əlaqədardır.

İntensiv irəlilyişin bir hissəsi olan psixomotor inkişaf bir neçə mərhələdən (əşyaların manipulyasiyası cəhdindən başlayaraq şüurluluğa qədər) keçir.

Şüurluluq dedikdə düşünülmüş, məqsədyönlü, planlı qavrayış və hərəkətlər vasitəsilə reallığı dəyişən fəaliyyət nəzərdə tutulur. Məşhur fizioloq N.A.Bernşteynə görə, hərəkət şüurlu şəkildə edildikdə, yəni nə üçün, niyə etdiyini bildikdə cilalanır və daha yüksək nəticə əldə edilir. Bunun üçün isə hərəkətin nəticəsini əvvəlcədən təsəvvür etmək, məqsəd müəyyənləşdirmək, detallı planlaşdırmaq bacarığı tələb olunur. Cəhdlər alınmadıqda uğursuzluğu analiz edib yenidən sınamaq lazımdır.

Bu pilləli və mürəkkəb əməliyyatı yerinə yetirmək üçün uşaq nə istədiyini bilməli, məqsəd qoymalı və hərəkətinin hansı hissələrdən ibarət olduğunu anlamalıdır. O, verilmiş tapşırığı əl ilə yerinə yetirmək üçün eyni vaxtda bir neçə müstəqil bacarığı koordinasiya etməlidir. Göründüyü kimi, incə hərəkətlər kompleks inkişafın müəyyən səviyyəyə çatmasını tələb edir. Bu səbəbdən də yalnız 3 yaşdan sonra uşaqların barmaq hərəkətləri böyüklərin barmaq hərəkətlərinə bənzəməyə başlayır. Bu isə inkişaf qanununa uyğundur. Motorika bacarıqları tədricən və digər sahələrlə yanaşı inki-şaf edir, kiçik motorikanın səviyyəsinə, hərəkətin keyfiyyətinə və sürətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

N.A.Bernşteyn qeyd edir ki, hərəkətlərin qurulma səviyyəsinin anatomik inkişafı ilk aydan başlayır və iki ilə başa çatır. Daha sonra uzunmüddətli gedişat, yəni hərəkətlərin quruluşunun bütün səviy-yələrdə bir-birinə uyğunlaşması prosesi başlayır. Bu proses əlin kiçik motor bacarıqlarının inkişafı istiqamətlərini müəyyənləşdirir. Bu istiqamətlər aşağıdakılardır.

Koqnitiv bacarıqlarının inkişafı

1948-ci ildə N.Bernşteyn insanı başqa canlılardan ən çox fərqləndirən cəhətlər kimi məntiqi, kiçik motorikanın və nitqin inkişafını göstərirdi.



Konkret təfəkkür

(şüurluluq, riyazi hesab, sağ tərəf, nitq, oxu və yazı, hərəki sfera)

Kiçik motorika koqnitiv bacarıqların inkişafına körpə və erkən yaşlarda daha aktiv təsir edir. Belə ki, uşaq əşyalara toxunaraq, onları əlinə alıb manipulyasiya edərək, ətraf aləmi araşdırır və öyrənir. Əşyalara toxunmaq, onların funksiya və keyfiyyətini bir-biri ilə müqayisə etmək uşaqda yeni bilik və kəşflərə yol açır.



Abstrakt təfəkkür

(təhtəlşüur, obrazlı yaddaş, sol tərəf, ritm, intonasiya və musiqi duyumu, məkan qavrayışı, hissi sfera)


Tanınmış neyrocərrah Penfildin hominkulusunun bədən hissələrinin ölçüləri beyinin zonalarına (mərkəzlərinə) proporsi–onaldır. Şəkildə beyinin sensor və motor qabığında insan orqanları mərkəzlərinin miqyası göstərilir. Burada göründüyü kimi, böyüdülmüş baş, ağız, dil, əl təfəkkürün, kiçik motorikanın və nitqin əhəmiyyətini qeyd edir.



Bəzən alimlər Penfildin hominkulusunu insanın əsl kimliyi adlandırırlar. Qeyd edildiyi kimi, beynin sensor və motor qabığında insan orqanları qeyri-proporsional təqdim edilir. Belə ki, bir barmağın sensor zonası bədənin bütün gövdə hissəsindən daha böyükdür. Çünki barmaqların ucları qarının və belin dərisindən daha həssasdır və biz ətraf aləmdən məlumatı daha çox bu orqanımız vasitəsi ilə alaraq emal edirik.
Nəticədə, kiçik motorika beyinin işləkliyini artırır, uşağın koqnitiv və yaradıcı fəaliyyətinə təkan verir.

Nitq inkişafı

Əlin kiçik motor bacarıqları nitqin inkişafı ilə sıx bağlıdır. Əgər beyinin şəklinə diqqətlə baxsaq, nitq motorikası mərkəzinin bir hissəsinin ümumi motor bölgəsinin yanında yerləşdiyini aydın görərik. Daha dəqiq desək, bu, əl-bilək zonasına yaxındır. Bu zona isə özlüyündə ümumi motor bölgəsinin üçdə bir hissəsini əhatə edir.




Bu mövzuda M.M. Koltsova, L.F. Fominanın araşdırmaları diqqət cəlb edir. Bu alimlər kiçik yaşlı uşaqların nitq inkişafının səviyyəsini təyin etmək üçün aşağıdakı təcrübəni həyata keçirmişlər: uşaqlardan barmaqları ilə bir, iki, üç rəqəmlərini göstərmək (bunu etməyin yolu nümunə ilə göstərilirdi) xahiş olundu. Təcrübədə tapşırığı yerinə yetirərkən lazım olmayan barmaqlarını izolyasiya etməyi bacaran uşaqlar yaxşı danışıqları ilə diqqət çəkdilər. Burada iştirak edən bütün uşaqları müqayisə etdikdə isə məlum oldu ki, nitqi qüsurlu uşaqların kiçik motorika bacarıqları daha zəifdir. Belə ki, zəif nitqli uşaqlar hərəkət zamanı barmaqlarını gərginləşdirir, onların ya hamısını bükür, ya da onları çevik, ayrı-ayrılıqda hərəkətlər etdirə bilmirdilər. Yuxarıda adı qeyd olunan alimlərin hər ikisinin araşdırma və müşahidələri təsdiq etdi ki, uşaqların barmaq hərəkətləri onların nitqinin inkişaf dərəcəsinə uyğundur.

Həm nitq, həm də psixomotorikanın inkişafı müəyyən şərait, təcrübə və bacarıq tələb etdiyindən bunun üçün vaxt tələb olunur. İkinci siqnal sisteminin (nitqin) fəaliyyətə qoşulması isə kiçik motorikanı kamilləşdirir və ümumi inkişafa aparır. Formalaşmamış psixomotorika və nitq pozuntuları uşağın ünsiyyət və hərəki davranışında özünü göstərir. Nəticədə alimlər belə qənaətə gəliblər ki, uşağın barmaq hərəkətləri sərbəst olmayana qədər onun nitq inkişafına nail olmaq mümkün deyil.

Yazı bacarıqlarının formalaşdırılması üçün manipulyativ hərəkətlərin inkişafı

Obyekt üzərində əməliyyat aparmaq üçün müəyyən əl hərəkətlərindən istifadə edirik. Yəni gündəlik həyatda düymələmə, kiçik əşyaları manipulyasiya, yazma, rəsm çəkmə və s. kimi kiçik motorika hərəkətləri icra edirik. Bunlar içərisində ən mühüm bacarıqlardan biri isə ***yazmaqdır.***


Məktəb yaşlı uşaqların yazı bacarığı əvvəlki yaşlarda (3-5 yaşda) olan inkişaf sıçrayışı nəticəsində formalaşır. Bu o deməkdir ki, yazıya başlamazdan bir neçə il əvvəl bu prosesə hazırlıq gedir. Yazmaq əldən ***mürəkkəb*** hərəkətələr tələb edir. Bu səbəbdən də 5-6 yaşlı uşaqların çevik əl hərəkəti bacarıqlarına yiyələnməsinə xüsusi diqqət yetirilir. Çünki çeviklik kiçik motorikanın inkişafının əhəmiyyətli göstəricilərindən biri və ən qəlizidir.



Məktəbəhazırlıq dövründə kiçik motorika bacarıqları niyə əhəmiyyətlidir?

Kiçik motorikanın inkişafı insan həyatının keyfiyyətinə birbaşa təsir göstərir. Çünki kiçik motorikadan gündəlik özünəqulluq işlərində (paltarların qatlanması, dişlərin təmizlənməsi, çəngəl-bıçaqdan istifadə və s.), həmçinin akademik nəticələrin yüksəlməsinə təsir edən bacarıqların (rəsm çəkmə, yazma, kəsib-yapışdırma və s.) yerinə yetirilməsində istifadə edirik.

Bu cür gündəlik işlərini yekunlaşdıra bilməyən uşaqlarda isə bir sıra çətinliklər yaranır - akademik göstəriciləri zəifləyir, müstəqil olmaq üçün müvafiq həyati bacarıqlara - geyinmək, yemək hazırlamaq və s. bilmirlər. Nəticədə, başqalarından asılı olmaq uşaqlarda özünəinamsızlıq yaradır.



Kiçik motorikanın inkişafına erkən yaşlardan başlamaq daha ***məqsədəuyğundur.*** Çünki məktəb dövrünə qədər formalaşdırılmış bu bacarıqlar yazını öyrənməyi daha da asanlaşdırır. Məktəbəhazırlıq dövründə uşaqların kiçik motorika bacarıqları cilalandığı üçün onlar tələşlanmadan, rahat və həvəslə yazmağı öyrənirlər.

Kiçik motorika uşaqda nitqi, məkanda koordinasiya, diqqət, konsentrasiya və təxəyyülü inkişaf etdirir. Belə ki, əlin sinir uclarının impuls alması və ona cavab verməsi uşaqların ***əqli və psixi inkişafı*** üçün bir məşqdir. Bu bacarıqların inkişafına cavabdeh olan baş beyin mərkəzi birbaşa əl və barmaqların sinir ucları ilə bağlıdır. Qıcıqlar nəticəsində baş beyin mərkəzlərində əlaqə yaranır, neyron şəbəkəsi genişlənir və vahid bir orqan kimi fəaliyyət göstərir.

Bu səbəbdən sensorika, kiçik motorika, hərəkətlərin koordinasiyası məktəbəqədər dövrdə açar anlayışlardır. Yəni kiçik motorikanın inkişafı tədricən və ardıcıllıqla gedir. Uşaq əvvəlcə əşyaya doğru əli ilə dartınır, onu tutur və sonra manipulyasiya edir. Bu prosesdə gözün və əlin koordinasiyası, həmçinin əllərin hər ikisinin işləməsi vacib rol oynayır.

Əlin incə hərəkətlərinin mənimsənilməsi prosesi propriosepsiyanın (öz bədənini hissi qavramaq) inkişafı ilə əlaqədardır. Bədənin hissi qavrayışı görmə-taktil əlaqə zamanı formalaşır. Bu əlaqələr formalaşdıqdan sonra hərəkətlər göz nəzarətində icra edilir.

Kiçik motorikanın inkişafı yazı bacarıqlarının formalaşmasında əhəmiyyətlidir. Çünki zəif inkişaf qrafik elementlərin (hərf, rəqəm, həndəsi fiqurlar) cizilməsi zamanı hərəkətlərin düzgün traektoriyasını müəyyənləşdirməkdə çətinliklər yaradır. Səbatsız xətt (ştrixlərin üzərindən səliqəli keçə bilməmək, müxtəlif ölçüdə yazılar, müxtəlif istiqamətə yönəlmələr, dartılmış, sıxlaşmış formalar və s.) yavaş - ləng sürətli yazma ilə nəticələnir.

Kiçik motorikanın zəif inkişafı uşaqda hansı problemlər yarada bilər?

Davranış: Bu cür uşaqlar kiçik motorika tələb edən fəaliyyətlərdən qaçır, özünə əmin olmadığı üçün hərəkəti yerinə yetirməkdən imtina edirlər. Onların bacarıqlarını yaşıdları ilə müqayisə etdikdə aqressiv ola və ya özünə qapana bilirlər. Xüsusilə əl və göz koordinasiyası tələb edən kiçik motorika tapşırılqarı zamanı özünəinamsızlıq və məyusluq nümayiş etdirir, başqasına tapşırıqlar verməyə üstünlük verirlər. Məsələn, "Ata, qala qur, alma kəs" və s.

Hərəkətləri sözlərlə dəqiq təsvir etsələr də, yerinə yetirməkdə çətinlik çəkirlər. Məsələn, Uşaq nə çəkdiyini və ya yazdığını sözlə aydın ifadə etməyi bacarır, ancaq fəaliyyətə gəldikdə onları çox anlaşılmaz və natamam edir.

Kiçik motorikanın inkişafında problemlərin olduğunu necə anlamaq olar?

Uşaqlar erkən yaşda (2-3 yaş) əşyaları bir-birinə vurur, tikəni baş və şəhadət barmağı ilə tutur, dar qabdan xırda əşyanı götürür, kağız üzərində cızır, 3 kubikdən körpü tikir, 4 kubikdən qala qurur, şaquli xətlər çəkir (30 dərəcəyə qədər yanlışlıq edir); kvadrat, dairənin üzərindən keçir, 3-5 elementdən ibarət adam şəkli çəkir və s. 2-3 yaşlı uşaq bu hərəkətləri edə bilirsə, onun kiçik motorikasının inkişaf sürətini normal hesab etmək olar. Ancaq bu hərəkətlərin bir neçəsində ləngimə və ya əksinə sürətlilik varsa, bu o deməkdir ki, uşağın təfəkkür və kiçik motorikasında öz yaşına uyğun, harmonik inkişaf problemi ola bilər. Yuxarıda qeyd olunan hərəkətlərin çoxu uşaq tərəfindən mənimsənilməyibsə, deməli, kiçik motorikada müəyyən inkişaf ləngiməsi var.

Məktəbəhazırlıq dövründə kiçik motorikanın inkişafının uşağın yaşına uyğun olmadığını necə anlamaq olar?

Əgər 5-6 yaşlı uşaq:

- yaşına uyğun özünəxidmət etməyi bacarmırsa;
- qayçı ilə işləyən zaman çətinlikləri (nizamsız, qeyri-stabil nəticə) varsa;
- qələm tutmaqda çətinlik (ovuc içi tutma, "digital" tutma)çəkirsə;
- rəngləmə və cızmanı ləng edirsə;
- kompyüterin "mouse"undan istifadə və ya cızma zamanı çox tez yorulursa;
- göz koordinasiyalı incə əl işi tələb edən fəaliyyətdən qaçırsa;
- kiçik motorika tələb edən tapşırıqlardan tez bezir və bu kimi hallar davamlı baş verirsə, bu halda kiçik motorikanın inkişafına ehtiyac vardır.

Kiçik motorika bacarıqları üçün nələri inkşaf etdirmək lazımdır?

İncə əl hərəkətlərinin mənimsənilməsi prosesi propriosepsiyanın (bədənin hissi qavrayışı) inkişafı ilə əlaqədardır. Propriosepsiya görmə-taktil əlaqə zamanı formalaşır. Beynimiz bədənimiz haqqında məlumatları gözümüzdən, əzələ və oynaqlarımızdan alır, emal edir və sonra biz gözümüzün nəzarəti altında hərəkətləri icra edirik. Göz koordinasiyası bir çox fəaliyyətdə (çəkmək, kəsmək, tikmək, yazmaq və s.) əli istqamətləndirir, idarə və nəzarət edir. Bununla yanaşı, işin icra olunması üçün barmaq lazımi əzələ gücünə malik olmalı, əşyaya təzyiq və müqavimət göstərməyi bacarmalıdır. Amma iş bununla bitmir, uşaq fəaliyyəti zamanı barmaqlarını bir-birindən izolyasiya edərək işlətməyi də bacarmalıdır. Məsələn, sancağı tutanda baş, şəhadət və orta barmaq fəal istifadə edilir. Adsız və çeçələ barmaq isə ovucun içinə bükülür. İzolyasiya etmək bacarığı barmaqlarda iş bölgüsünü aparmaq imkanını yaradır və bununla da çox incə əl hərəkətlərinə nail olunur.

İkitərəfli inteqrasiya. Tapşırıq zamanı hər iki əlin istifadəsi deməkdir. Yalnız bir əlin deyil, iki əlin də işləməsinə fikir vermək (digər əllə dominant ələ yardım etmək) lazımdır.

Əl və barmaqların gücü. Hərəkəti idarə etmək üçün əl və barmaqların müqavimət göstərmək bacarığıdır. Bunun üçün sancaq, naqqaş və s. kimi əşyalarla oyun oynamaq olar.

Əl və gözlərin koordinasiyası: Göz-əl koordinasiyasını unutmaq olmaz, çünki kiçik motorikanın inkişafı prosesi gözün nəzarəti ilə həyata keçir. Yazı fəaliyyətində də əli istqamətləndirmək, idarə və nəzarət etmək üçün gözdən alınan məlumatların emalı bacarığı mütləqdir.

Bundan əlavə, hərəkətin cilalanması üçün ***dominant əli*** müəyyənləşdirmək lazımdır. Müəllim dominant ələ daha çox incəlik tələb edən tapşırıqlar verməlidir. Digər əl isə işin səmərəliliyini və sürətini artırmaq üçün inteqrasiya olmalı və dominant ələ dəstək etməyi öyrənməlidir.

Dominant əli necə müəyyənləşdirmək olur?

Məktəbəhazırlıq dövründə uşaqların dominant tərəfi artıq aydınlaşmış olur. Müəllim valdeynlə söhbət, müşahidə və test ilə bunu müəyyənləşdirə bilər.

Bir çox hallarda valideyn uşağınını dominant tərəfini bilir. Əgər ata-ana cavab verməkdə çətinlik çəkirsə, müəllim valideynlərdən uşağın hansı tərəfində yatdığını, ağzında hansı tərəfdə yemək çeynədiyini soruşmaqla müəyyənləşdirə bilər. Müəllim paralel olaraq uşağı müşahidə etməli, uşaqların hansı əllə daha çox və xırda işləri gördüyünü müəyyənləşdirməlidir. Bundan sonra da aydın deyilsə, uşaqla müvafiq test aparmalıdır.

Dominant əli müəyyənləşdirmək vacibdir, çünki solaxay uşaqların qayçı və qələm tutması, ip bağlaması sağ əllə yazan uşaqlardan fərqlənir. Məsələn, əgər uşaq solaxaydırsa, müəllim aşağıdakıları nəzərə almalıdır.

Solaxay uşaqlar qələmi necə tutmalıdırlar?

Solaxay uşağın sol tərəfi sərbəst olmalıdır.

Oturacaq sol tərəfdə qoyulub sağa meyllənməlidir və həmçinin uşağın bədəni də sağ tərəfə meyllənməlidir.

Kağız sağ tərəfə meylli olmalıdır (vərəqin sol küncü yuxarı baxır), bu pozisiya yazı zamanı daha rahatdır.

Biləyə güc düşməməsi üçün qələmin gövdəsi və sol əlin qolu bir xətt yaradır. Yazı zamanı bir qədər meyllillik qəbuledilən-dir, amma bilək içəri fırlanmamalıdır. Sağ əllə kağızı istiqamətləndir–mək olar.

Yazan əl sətirin altında yerləşir. Bəzən solaxaylar yazı yazanda əlini sətirin üstündə saxlayır, amma, mütəxəssislərin fikrincə, bu, yanlış yazı pozisiyasıdır.

Bütün xəttlər düzdür, hərflərin meylliliyinə kağızı əyməklə nail olmalıdır.

Solaxaylarda, sağla yazanlardan fərqli olaraq, qələm bir az hündürdə tutulur. (qələmin ucundan təxminən 4 sm hündür).

Şəhadət barmağı gərgin saxlanılmamalıdır. Uşağın barmağının gərgin olub-olmadığını bilmək üçün ondan barmağını aşağı-yuxarı hərəkət etdirməyi xahiş etmək olar.

Uşaqların kiçik motorikasının cilalanması uzun zaman aldığı üçün kiçik motorikanın inkişafına erkən yaşlardan fikir vermək lazımdır. Birinci sinfə qədər uşaqlar barmaqları ilə incə, dəqiq və məqsədyönlü hərəkət etməyi öyrənməlidirlər ki, məktəb dövründə tələşlanmadan, rahat şəkildə hüsnxətlə yazmağı bacarsınlar. Bu səbəbdən məktəbəqədər dövrdə kiçik motorikanın inkişafı vacibdir.

Kiçik motorikanın inkişafı üçün fəaliyyətlərin keçirilmə qaydası

İşə əllərin isidilməsi ilə (büküb-açma) başlamaq lazımdır. Bunun üçün top və və ya rezin oyuncaqlardan istifadə etmək olar.

Əvvəlcə hərəkət göstərilir, sonra barmaq və biləklərin pozası izah edilir.

Əvvəlcə yalnız sözlərlə tapşırıq verilir. Əgər oyun uşaq üçün yenidirsə, yadında qalmır və ya səhv icra edirsə, müəllim hərəkəti yenidən nümayiş etdirir.

Əvvəlcə bütün hərəkətlər yavaş sürətlə yerinə yetirilir. Əgər uşaq hərəkəti müstəqil yerinə yetirə bilmirsə, müəllim uşağın əlini öz əlinə alır və hərəkəti birlikdə təkrar edirlər. Uşaq əlini digər əlinin köməyi ilə də hərəkət etdirməyə çalışa bilər.

Bilək və barmaq hərəkətlərinin məşqi sistemli və mütəmadi olaraq 2-5 dəqiqə ərzində yerinə yetirilir.

5-6 yaşlı uşaqlarda kiçik motorikanın inkişafı üçün gündə 20 dəqiqə vaxt ayırmaq kifayətdir.

Kiçik motorikanın inkişafı üçün fəaliyyətlər

Barmaqların masajı


Hərəkət 1: Eyni anda sağ əli açıb, sol ilə isə bükürük. Sonra isə əksini edirik.



Hərəkət 2: Yumşaq dilikli topa barmaqlarımızla müxtəlif ağırlıqda təzyiq göstəririk və sürətini azaldıb çoxaldırıq.



Hərəkət 3: Hər iki ovcumuzla tutaraq altıbucaqlı karandaşı müxtəlif sürətdə diyirlədirik.



Hərəkət 4: Küknar ağacının qozasını ovuclarımıza götürərək müxtəlif təzyiqdə hərəkətlər edirik.




Əhəmiyyəti: Propriosepsiyanı, ikitərəfli inteqrasiyanı, əl və barmaqların qüvvətliliyini inkişaf etdirir.


Plastilinlə iş

Hamıya məlum olan plastilindən yapma işləri görürük. Plastilinlə yalnız yapma deyil, başqa texnikaları da istifadə etmək olar.


Nümunə 1: Plastilindən kiçik dairələr düzədib şəklimizə yapışdırırıq.




Nümunə 2: Plastilindən “iplər” hazırlayırıq və rəngləyirik. Bu texnika üçün yumşaq plastilin götürürük və əridib şprisə yığırıq. Şprisi sıxaraq “ip” əyirir, sonra istədiyimiz rəsmi yaradır və ya hazır şablonlar üzərindən keçirik.



Əhəmiyyəti: Propriosepsiya, ikitərəfli inteqrasiyanı, əl və barmaqların qüvvətliliyini, əl və gözlərin koordinasiyasını, bir əlin dominantlığını, barmaq izolyasiyasını inkişaf etdirir.






Qumla oyun

"Qumla oyun" dedikdə nümunə olaraq aşağıdakıları nəzərdə tuturuq:


- Qum ələmək.




- Qumun içində əşya axtarmaq. Bu tip oyunları dənli bitkilər və lobya ilə də oynamaq olar.



- Qumda şəkil çəkmək.
- Qumu bir vedrədən başqa vedrəyə yerə dağıtmadan tökmək.
- Ölçü qaşığı ilə qumu səpmək.






Əhəmiyyəti: Propriosepsiya, əl və gözlərin koordinasiyasını, bir əlin dominantlığını inkişaf etdirir.

Düymələrlə oyun

Dairəni düymələrlə “rəngləyirik”.

Nümunə: Düymələri həm rəng, həm də forma və ölçüsünə görə müxtəlif cür işlətmək olar.




Əhəmiyyəti: Propriosepsiya, barmaq izolyasiyasını inkişaf etdirir.


Kağızla iş

Kağızın özü ilə cırma, əzmə, bükmə kimi müxtəlif fəaliyyətlər aparmaq olar.


Nümunə 1: Kağızı eyni ölçü və uzunluqda cırırıq.



Nümunə 2: Oriqami hazırlayırıq.




Nümunə 3: Kağızdan top düzəldirik.




Əhəmiyyəti: İkitərəfli inteqrasiyanı, əl və barmaqların qüvvətliliyini, əl və gözlərin koordinasiyasını, barmaq izolyasiyasını inkişaf etdirir.

İplə iş

Nümunə 1: İki müxtəlif rəngli ipləri bir-birinə bərkidir və ardıcıllıqla ipləri dəlikdən keçiririk.



Nümunə 2: Sapın hər iki ucunu bir-birinə bərkidirik və sapla manipulyasiya edərək onu hər iki əlin barmaqlarında gəzdiririk.




Əhəmiyyəti: Propriosepsiya, ikitərəfli inteqrasiyanı, əl və barmaqların qüvvətliliyini, əl və gözlərin koordinasiyasını, inkişaf etdirir.

Məişətdə istifadə olunan əşyalarla iş


Nümunə: Sancaq, maqqaş, pipetka, şpris və s. kimi əşyalar ilə şəkil çəkir və əl işləri hazırlayırıq.

Pişik şəklini tamamlayırıq.





Əlimiz ilə toxunmadan qotazları başqa qaba düzürük.




Su ilə kiçik motorikanı inkişaf etdiririk.





Əhəmiyyəti: Propriosepsiya, ikitərəfli inteqrasiyanı, əl və barmaqların qüvvətliliyini, əl və gözlərin koordinasiyasını, bir əlin dominantlığını, barmaq izolyasiyasını inkişaf etdirir.

Qayçı tutmaq qaydası



Qayçının yuxarı dəliyinə baş barmağımızı, aşağı dəiyə isə ora barmağımızı yerləşdiririk. Şəhadət barmağımızla qayçını istiqamətləndiririk.

Baş barmağa “smile” çəkmək, qayçıyla işləyən zaman barmaqların pozisiyasını düzgün tutmağa kömək edir.

Qeyd: Qayçını düzgün tutmaq və onunla düzgün davranmaq vacibdir!


Təhlükəsizlik qaydaları




Qayçını ucunu yuxarıya deyil, irəliyə tut.



Qayçını bağlı saxla



Qayçı ilə işləyəndə sol əlin ilə kağızı tut və idarə et.




Qayçını həmişə stolun mərkəzinə qoy.





Onu başqasına ağzı bağlı şəkildə, ucundan tutaraq ver.

Qayçı ilə iş

Nümunə: Plastilin, plastik qab, plastik çubuq və s. məişət əşyalarını kəsirik.








Əhəmiyyəti: Propriosepsiya, ikitərəfli inteqrasiyanı, əl və barmaqların qüvvətliliyini, əl və gözlərin koordinasiyasını, bir əlin dominantlığını, barmaq izolyasiyasını inkişaf etdirir.

Qələm tutma texnikaları

Nümunə 1:



Nümunə 2: Qələm tutma texnikasını düzgün mənimsəmək üçün müxtəlif əşyalardan istifadə edə bilərik.




Əhəmiyyəti: Propriosepsiya, ikitərəfli inteqrasiyanı, əl və barmaqların qüvvətliliyini, əl və gözlərin koordinasiyasını, bir əlin dominantlığını, barmaq izolyasiyasını inkişaf etdirir.


Qrafik tapşırıqlar

Hazır kartonlar, dama-dama vərəq və ya hüsnxətt üçün dəftərlərdən istifadə etmək olar. Qrafik tapşırıqlar uşaqlarda kağız üzərində məkan anlayışını, rəqəm və hərflər arasında ara qoymaq, qələmi müxtəlif pozalarda tutmaq və s. kimi bacarıqları formalaşdırır.


Nümunə 1: . Kartonun üzərində ştrixlənmiş və yarım ştrixlənmiş (üfüqi, şaquli, yanakı) konturların üzərindən keçir və ya tamamlayırıq.






















Nümunə 2: Şəkili tamamlayırıq.





Nümunə 3: Nöqtələri birləşdirik.







Məsafə hissinin və məkan anlayışının inkişafı


Bu tapşırıqlarda şərtə uyğun olaraq əşyalar arasında xətti müəyyənləşdirmək və çəkmək lazımdır.

Nümunə 1: Yarpaqların üstü ilə qurbağanın hoppanmasına kömək edirik.




Nümunə 2: Halqanı hədəfə sancırıq.





Qrafik imlalar

Nümunə: Dəftər damaları üzərində müxtəlif istiqamətlərdə boş damalar buraxaraq nöqtələr qoyur və sonra o nöqtələri birləşdiririk.



Əhəmiyyəti: Propriosepsiya, əl və gözlərin koordinasiyasını inkişaf etdirir.

İstifadə olunmuş ədəbiyyat

1. Берштейн Н.А. Очерки о физиологии движений и физиологии активности [Текст]. Н.А. Берштейн. М., 1966. 234 с.

2. Исенина Е.И. Дословесный период развития речи у детей [Текст]. Е.И. Исенина. Саратов, 1986. 82 с.

3. Кистяковская М.Ю. Развитие движений у детей первого года жизни [Текст]. М.Ю. Кистяковская. М., Педагогика, 1970. 224 с.

4. Колüöова М.М. Движение и развитие моторной речи [Текст]. М.М. Колüöова. М., Педагогика, 1973. 172 с.

5. Лурия А.Р. О генезе произволüных движений [Текст]. А.Р. Лурия. Вопросы психологии. 1957. №2. 65-67 с.

6. Сеченов И.М. Рефлексы головного мозга [Текст]. И.М. Сеченов. М.: Изд-во Акад. наук СССР, 1961. 100 с.

7. Ткаченко Т.А. Развиваем мелкую моторику Т.А. Ткаченко. М., ЭКСМО, 2007.

8. http://doshvozrast.ru/metodich/konsultac67.htm

9. https://interactive-plus.ru/ru/article/115152/discussion_platform

10. http://elib.gnpbu.ru/text/bernshteyn_o-lovkosti_1991/go,6;fs,1/

Təhsildə İnkişaf və İnnovasiyalar üzrə
Qrant müsabiqəsinin qalibi:
Sabirabad rayon Nizami Gəncəvi adına 5 №-li tam orta məktəbin
ibtidai sinif müəllimi

Layihə rəhbəri: Günel Əhmədova

Müəllifi: Fərqanə Seyidli

Rəssam-illüstrator: Səbinə Vəzirova
Dizayn: Zemfira Rüstəmova